

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 103 (24.240)

*9 iyun 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik

## Naxçıvanın rabitə, kommunikasiya və nəqliyyat sahəsindəki inkişaf perspektivləri müzakirə olunub





Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər edib.

Səfər çərçivəsində Naxçıvan Muxtar Respublikası rabitə və yeni texnologiyalar naziri Vüsal Sevdimaliyev və qonaqlar Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoyub, Ulu Öndərin xatirəsini dərin ehtiramla yad ediblər, sonra qonaqlar muzeylə tanış olublar.

Sonra Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və Naxçıvanın aid qurumlarının rəhbərləri ilə görüş olub.

Görüşdə Prezident cənab İlham Əliyevin təsdiq etdiyi "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"ndan irəli gələn məsələlər geniş müzakirə edilib. Naxçıvanda telekommunikasiya, nəqliyyat, rəqəmsallaşma, mobil rabitə, poçt və digər sahələrdə sürətli inkişaf üzrə perspektiv planlara toxunulub, konkret fəaliyyət istiqamətləri müəyyənləşdirilib, görüləcək işlərin planlanması, əlaqələndirilməsi və təhlili üzrə işçi qrupu yaradılıb. Nümayəndə heyətinin üzvləri aid sahələr üzrə mövcud infrastrukturla da tanış olublar.

**"Şərq qapısı"**

## Region üçün qarşıdakı 4 illik hədəflər müəyyənləşdirilib

### *Məqsəd 2030-cu il Dayanıqlı İnkişaf Gündəliyinə nail olunmasıdır*



*Məlum olduğu kimi, iyunun 5-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" qəbul olunub.*

Sərəncamda qeyd olunur ki, 2004-cü ildən etibarən qəbul edilmiş Dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrası Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafı, yeni iş yerlərinin və müəssisələrin yaradılması, kommunal və sosial infrastruktur təminatı səviyyəsinin yüksəlməsi ilə nəticələnmişdir. Bu çərçivədə görülmüş işlər qarşıdakı illərdə də muxtar respublikanın inkişafı üçün geniş imkanlar yaratmışdır. Xüsusilə hazırkı imkanlardan istifadə edilməklə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatında, o cümlədən kənd yerlərində iqtisadi fəaliyyətin sürətləndirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi nəticəsində ixracyönlü dəyər zəncirinin qurulması və dayanıqlı iş yerlərinin yaradılması istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi əsas prioritetlərdən birinə çevrilmişdir.

Dövlət Proqramı ilə tanışlıqdan məlum olur ki, yeni proqram əvvəlki illərdə qəbul edilmiş analoji variantlarından daha əhatəli və gələcəyə yönəlik mühüm prioritetləri özündə birləşdirərək daha mükəmməl hazırlanıb. Belə ki, proqramın hazırlanması üçün cari ilin əvvəllərindən muxtar respublikada bir çox sahələr ciddi təhlil olunub, mövcud vəziyyət yerində araşdırılaraq qiymətləndirilib və bütün bunların əsasında məqsədyönlü qərarlar verilərək qarşıdakı hədəflər müəyyənləşdirilib.

Aparılan təhlillər içərisində maraqlı nəticələrdən biri gələcək hədəflərin müəyyənləşməsində GZİT (Güclü və Zəif tərəflər, İmkanlar və Təhlükələr) təhlilindən istifadə olunmasıdır. Məhz bu təhlil nəticəsində müəyyən olunub ki, dövlət xidmətlərinə əlçatanlıq səviyyəsinin aşağı olması, əlverişli biznes mühitini formalaşdıran zəruri təşviqlərin azlığı, maliyyəyə çıxış imkanlarının məhdudluğu, regionun enerji təchizatı və kommunikasiya xətlərinin aşağı səviyyədə diversifikasiya olunması, elektrik xətlərinin istismar müddətinin başa çatması, kənd təsərrüfatı və digər sahələr üzrə infrastruktur və su təminatı sistemində çatışmazlıqlar, ölkənin digər əraziləri ilə birbaşa quru nəqliyyat əlaqəsinin olmaması mövcud imkanlardan maksimum istifadəni məhdudlaşdırır. Diqqət etsək, görərik ki, zəif tərəflərdə əsas ağırlıq iqtisadi istiqamətlər üzrədir və regionun ölkənin digər əraziləri ilə nəqliyyat-kommunikasiya imkanlarının məhdudluğu istisna olmaqla (bu problemin həlli yerli idarəetmənin səlahiyyətindən asılı deyil), digər istiqamətlər üzrə "zəifliklər", həm də bu sahədə indiyədək həll edilməmiş problemlərin mövcudluğundan xəbər verir.

Təhlükəli vəziyyətin yaranmasında isə indiyədək muxtar respublikada büdcə transferləri payının yüksək olması, ixrac bazarlarının coğrafi diversifikasiyasının məhdudluğu, istehsal olunan məhsulların beynəlxalq bazarlarda rəqabət üstünlüyünün itirilməsi təhlükəsi, qlobal iqlim dəyişikliyi təsirləri, xüsusilə əkinəyararlı torpaq sahələrinin səhralaşması və deqradasiyası, əhalinin digər regionlara və xarici ölkələrə miqrasiyası əsas götürülüb.

Real vəziyyətin dəyişdirilməsində, yəni proqramda icrası nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsində muxtar respublikanın "imkanları" və "güclü tərəfləri" də müəyyənləşdirilərək nəzərdən keçirilir. Güclü tərəf kimi muxtar diyarın təbii ehtiyatları və xammal bazası, bərpa olunan enerji potensialı (Günəş və külək enerjisi), sahibkarlığın inkişafına, ixracın stimullaşdırılmasına və əlverişli investisiya mühitinin yaradılmasına dövlət dəstəyi, beynəlxalq hava limanı, xarici ticarət üçün əlverişli iqtisadi-coğrafi mövqedə yerləşməsi əsas götürülür.

Potensial imkanlar kimi isə Naxçıvanın mühüm enerji və nəqliyyat dəhlizlərinə yaxınlığı, xüsusilə Zəngəzur dəhlizi vasitəsilə Orta Dəhlizlə logistik bağlantısı, rəqabətqabiliyyətli turizm potensialı, ixracyönlü sənaye sahələrinin inkişaf perspektivləri, enerji təchizatı və kommunikasiya xətlərinin dayanıqlılığının artırılması və sair göstərilir.

Ümumilikdə, Dövlət Proqramında qarşıya qoyulan əsas prioritetlər muxtar respublikada əlverişli biznes mühitinin, o cümlədən azad iqtisadi zonanın yaradılması, ticarətin, ixracyönlü sənayenin, kənd təsərrüfatı məhsulları istehsalının və emalının, turizmin, infrastruktur təminatının, sosial sektorun, insan kapitalının inkişafını təmin etmək, həmçinin elektrik enerjisi istehsalının və ixracının artırılması, institusional inkişafın, ətraf mühitin mühafizəsinin gücləndirilməsinin təmin olunmasıdır.

Beləliklə, yeni Dövlət Proqramını indiyədək qəbul edilmiş analoji proqramlardan fərqləndirən odur ki, əvvəlki Dövlət proqramlarında, əsasən, infrastruktur quruculuğu əsas rol oynayırdısa, yeni proqramda daha çox müxtəlif istiqamətlər üzrə iqtisadi və sosial hədəflərə nail olunması qarşıya məqsəd qoyulub. Diqqətçəkən məqamlardan biri də odur ki, yeni proqramda görüləcək işlərlə bağlı regionun spesifik xüsusiyyətləri nəzərə alınmaqla, həm də beynəlxalq təcrübədə təsdiqini tapmış ən yaxşı təcrübələrin tətbiqi də nəzərdən keçirilir. Xüsusilə Dövlət Proqramı hazırlanarkən davamlı inkişaf prinsipləri, o cümlədən BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi" ilə müəyyən olunan Dayanıqlı İnkişaf Məqsədləri, həmçinin mütərəqqi beynəlxalq təcrübə və Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi potensialı və ehtiyaclara əsaslanan çağırışlar nəzərə alınıb. Proqramın icrasında hədəflərə uyğun olaraq dayanıqlı iqtisadi artımın dəstəklənməsi, layiqli məşğulluq imkanlarının yaradılması, bölgə əhalisi üçün əlçatan, etibarlı və müasir enerji xidmətləri, insan rifahını dəstəkləyən keyfiyyətli və möhkəm infrastrukturun qurulması həm də 2030-cu il Dayanıqlı İnkişaf Gündəliyinə nail olunması üçün atılacaq addımlardır.

**✍ Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## *"Heydər Əliyev və Azərbaycan sahibkarlığı"* mövzusunda keçirilən sərgidə Naxçıvan məhsulları nümayiş edilir










İyunun 8-də Bakıda "Heydər Əliyev və Azərbaycan sahibkarlığı" mövzusunda yerli şirkətlərin tanıtım sərgisi öz işinə başlayıb.

Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan tədbir İqtisadiyyat Nazirliyinin dəstəyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və "Marsol Group"un birgə təşkilatçılığı, "Kapital Bank"ın rəsmi tərəfdaşlığı ilə keçirilir. Sərgidə sənaye, kənd təsərrüfatı, qida, İKT, təhsil, inşaat, logistika, tekstil və digər sahələrdə fəaliyyət göstərən 150-dən çox yerli şirkətin məhsul və xidmətləri nümayiş olunur.

Sərginin məqsədi Azərbaycan şirkətlərinin daha geniş tanıdılması, bazarlara çıxış imkanlarının genişləndirilməsi, iş adamları arasında biznes tərəfdaşlığının inkişaf etdirilməsi və yeni əməkdaşlıqların qurulmasıdır.

İqtisadiyyatın bütün sektorları üzrə məhsul və xidmətlərin təqdim olunduğu sərgidə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edir. Nümayəndə heyətinin tərkibinə muxtar respublikada fəaliyyət göstərən "Arkoz Holdinq"in, "Himal Holdinq"in, "Naxçıvan Duz İstehsalı", "ENNA", "AzElektrod", "Karton Tara" Məhdud Məsuliyyətli cəmiyyətlərinin, "Sirab" Açıq Səhmdar Cəmiyyətinin, "Müasir Məkan" ət və ət məhsulları müəssisəsinin, "Savalan-S" kiçik müəssisəsinin nümayəndələri daxil edilib.

Sərgidə 3 istehsalçı şirkətin mineral suları, limonadları, duzu, enerji və sərinləşdirici içkiləri, kafel, metlax, məsaməli beton-blok yapışdırıcıları, boyaları nümayiş olunur.

İyunun 10-dək davam edəcək tədbir çərçivəsində, müxtəlif mövzularda panel müzakirələr təşkil olunacaq, ikitərəfli görüşlər keçiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Azərbaycan öz ərazi bütövlüyünün tamlığını qətiyyətlə müdafiə edir

## Prezidentin Laçın səfərinə sözardı

Vətən müharibəsindən sonra ölkə Prezidenti cənab İlham Əliyevin işğaldan azad edilmiş rayonlara səfəri davamlı xarakter alıb. Xüsusilə son üç ildə dövlət başçısının əlamətdar tarixi günlərdə bu səfərləri reallaşdırması qürurverici olmaqla yanaşı, həm də rəmzi xarakter daşıyır. Elə bir neçə gün bundan əvvəl cənab İlham Əliyevin Kəlbəcər və Laçın rayonlarına səfəri, həm də 28 May – Müstəqillik Gününü Laçın şəhərinə qayıdan əhali ilə birgə qeyd etməsi xüsusi əhəmiyyət daşıyırdı. Dövlətimizin başçısı özü də bildirdi ki, bu görüşü məhz 28 may tarixdə təşkil etməyimizin böyük rəmzi mənası var. Bu gün müstəqil Azərbaycan dövləti həm dünya miqyasında öz mövqelərini kifayət qədər möhkəmləndirib, eyni zamanda istənilən nəticəni əldə etməyə qadirdir. Ağalı, Talış kəndlərinin ardınca Laçın şəhərinə qayıdış Böyük Qayıdış proqramının uğurlu icrasından və hədəflərə nail olmaq üçün bütün imkanların mövcudluğundan xəbər verir.

Dövlət başçısı Laçına səfəri zamanı rayon ərazisində bir neçə açılışlarda iştirak etdi, habelə bir çox müəssisənin, yaşayış məntəqəsinin təməlini qoydu. Həmçinin Prezident səfər əsnasında atdığı addımlarla, verdiyi bəyanatlarla göstərdi ki, bu torpaqların əsl sahibi, həqiqətən, Azərbaycan xalqıdır. Bu xalq erməni faşizmi tərəfindən viran edilmiş yurd yerlərimizi yenidən qurub-yaratmaq əzminə qadirdir. Həmçinin Prezident Laçın sakinləri ilə söhbətində onlara 2011-ci ildə Ağcabədidə həmin sakinlərlə görüşəndə dediyi sözləri xatırlatdı. Diqqətə çatdırdı ki, həmin vaxt Laçına qayıdacağını əminliklə bildirmişdi və bu gün Laçın sakinlərinin öz doğma yurduna qayıdışı bu sözün təsdiqidir.

Azərbaycan Prezidenti Laçında olarkən çox maraqlı bəyanatlarla çıxış etdi. Məsələn, dövlət başçısı bildirdi ki, artıq Ermənistan bizim ərazi bütövlüyümüzü tanıdıqdan sonra faktiki olaraq sülh müqaviləsi üçün hər hansı bir ciddi maneə qalmayıb. Yaxın gələcəkdə, əgər yenə də Ermənistan saxtakarlıq etməsə və yenə də öz mövqeyini dəyişməsə, sülh müqaviləsi imzalana bilər: ***"İmzalansa, çox yaxşı, imzalanmasa da, hər halda Azərbaycan dövləti buna görə heç bir problemlə üzləşə bilməz. Çünki güclü tərəf bizik, danışıqlar masasında güclü mövqeyə sahib olan bizik, sərhəddə güclü mövqelərə sahib olan bizik. Sülh müqaviləsi imzalanmasa da, biz rahat və təhlükəsizlik şəraitində yaşayacağıq".***

Təbii ki, sülh üçün sərhədlərin delimitasiya məsələsinin öndə gəldiyini vurğulayan dövlət başçısı ***"Sərhədlərin delimitasiyası bizim şərtlərimiz əsasında, yəni ədalətli şərtlər əsasında olmalıdır. Sülh müqaviləsi beynəlxalq şərtlər əsasında olmalıdır, Naxçıvana yolumuz açılmalıdır və Qarabağda hələ də kök salmış Ermənistan ordusunun nümayəndələri oradan çıxarılmalıdır. Bunlar bizim şərtlərimizdir"***, – deyə bir daha bu haqda fikirlərini qarşı tərəfə, eyni zamanda bütün maraqlı qüvvələrə çatdırdı. Ölkə Prezidentinin ***"Mən bu şərtləri, bax burada, Laçın şəhərində deyirəm ki, hər kəs görsün ki, biz bu gün buradayıq və burada əbədi olacağıq. Onu da bilsinlər ki, Ermənistan kəndləri buradan görünür. Biz də görürük o kəndləri, yəni onu da unutmasınlar"*** sözləri deyilənlərin qətiliyini bir daha əyani şəkildə ortaya qoydu.



Prezidentin Laçın sakinləri ilə görüşündəki bəyanatlarda diqqətçəkən məqamlardan biri də o idi ki, dövlət başçısı Qarabağda mövcud olan separatçı tör-töküntülərinə də çıxış yolunu göstərdi: ***"Buradan – uzun illər istismar etdikləri, qanunsuz məskunlaşdıqları Laçın diyarından onlara bir daha deyirəm ki, sizin kitabınız bağlandı. "Miatsum" kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə".*** Ardınca dövlətimizin başçısı onlar üçün qalan yeganə yolu da açıqladı. Bu, Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dırnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq və "parlament"i buraxmaqdır.

Dövlət başçısı növbəti dəfə xatırlatdı ki, Azərbaycanın suverenliyi çərçivəsində, Azərbaycanın şərtləri daxilində yaşamaq istəyən Qarabağ ermənilərinin hər biri bizim vətəndaşımızdır. Başqa fikirlərdə olan, Azərbaycan bayrağı altında yaşamağı qəbul etməyənlərə qapı açıqdır. Dövlət başçısının ermənilərin özlərinin başa düşəcəyini, "Azərbaycan bayrağı altında yaşamağı qəbul edəcəyini gözlədiyimiz üçün heç bir addım atılmır" mesajından da aydın olur ki, istənilən an Azərbaycan lazımi addımlar ata, suverenliyini, milli təhlükəsizliyini və ərazi bütövlüyünə olan təhdidi aradan qaldırmaq üçün adekvat tədbirlər görə bilər.

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Laçında açıqlamaları mövcud vəziyyətin qiymətləndirilməsi, görüləcək işlərin əvvəlcədən verilən anonsu da sayıla bilər. Əsas odur ki, dövlət başçısının hər bir açıqlamasında günümüzün reallığı əks olunub və bu reallığı Azərbaycan özü yaradıb. Müharibədən sonrakı dövrdə bu məsələlərdə Azərbaycan düzgün siyasət həyata keçirərək öz mövqelərini gücləndirdi və ötən hər gün ölkəmizə etimad göstərən dövlətlərin sayı da durmadan artır. Təsadüfi deyil ki, cənab İlham Əliyevin Laçında verdiyi bəyanatları, xüsusilə Qarabağdakı separatçılarla bağlı ultimatumu bu günlərdə ABŞ və Avropa rəsmiləri tərəfindən də yüksək səviyyədə qiymətləndirildi. Görünən odur ki, bu gün Azərbaycan nəinki Cənubi Qafqazda, Avropada, həm də qlobal miqyasda ciddi tərəf kimi qəbul edilir. Artıq dünya üçün önəmli məsələlərlə bağlı qərarların qəbul edilməsində ölkəmiz sayılıb-seçilən mövqedədir. Prezidentin Laçın səfəri ilə bağlı verdiyi bəyanatların ümumi məzmunu isə bundan ibarətdir ki, Azərbaycan hüquqi olaraq öz müstəqilliyinin və ərazi bütövlüyünün tamlığını qətiyyətlə müdafiə edəcək.

**✍ Səbuhi HƏSƏNOV**

# Bank əməkdaşlarının yaradıcılıq tədbiri keçirilib



Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin təşkilatçılığı ilə "Naxçıvan Palace"da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş istedadlı bank əməkdaşlarının yaradıcılıq tədbiri keçirilib.

Ölkədə banklar arasında ilk dəfə keçirilən tədbirdə Mərkəzi Bankın baş direktoru Gülər Paşayeva, İR departamentinin direktoru Oksana İsmayılova, Azərbaycan Respublikası Milli Məclisinin deputatları Cəbi Quliyev və Ülviyyə Həmzəyeva, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Naxçıvan Muxtar Respublikası İdarəsinin rəisi Vüsal Ələkbərli və digər qonaqlar iştirak edib.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Elçin Əliyev bildirib ki, ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilib. Ümummilli Liderin anadan olmasının 100 illik yubileyi ölkəmizin hər yerində yüksək ehtiram və dərin minnətdarlıq hissi ilə geniş qeyd olunur, silsilə tədbirlər keçirilir. Bu gün keçirilən yaradıcılıq tədbiri də bu istiqamətdə həyata keçirilən tədbirlərin davamıdır.

Sonra Mərkəzi Bankın baş direktoru Gülər Paşayeva çıxış edib. O, tədbirdə iştirak edən bütün istedadlı gənclərə uğurlar arzulayıb.

Tədbirin davamında Ümummilli Liderin həyatından bəhs edən videoçarxa baxış olub.

Daha sonra tədbir iştirakçıları muxtar respublikada fəaliyyət göstərən bankların əməkdaşlarının hazırladığı rəsm və əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Tədbir müxtəlif videoçarxlar və bank əməkdaşlarının hazırladığı musiqi nömrələrinin ifaları ilə davam edib.

**Xəbərlər şöbəsi**

# Təsərrüfat ilini uğurla başa vurmaq üçün tədbirlər görülür

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamın regionda həyatın bütün sahələrinin yeni inkişaf mərhələsinə qədəm qoyulmasına hədəflənib. Proqramda iqtisadiyyatın dinamik davamlılığına nail olmaq, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasının, nəticə etibarilə, əhalinin məşğulluğunun və rifahının yüksəldilməsini təmin etmək başlıca məqsədlərdir. Bu sırada iqtisadiyyatın aparıcı qollarından biri olan aqrar sahənin inkişafı üçün də məqsədyönlü tədbirlərin görülməsi ön planda özünə yer alıb.*

Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planında bitkiçiliyin, bağçılığın, üzümçülüyün, bostançılığın inkişaf etdirilməsi, muxtar respublika üçün spesifik və orqanik kənd təsərrüfatı məhsullarının brendləşdirilməsi və təşviqini təmin etmək torpaqların su ilə təminatının yaxşılaşdırılmasını zəruri edir. Ona görə də adıçəkilən proqramda bu istiqamət diqqətdə saxlanılıb. Görüləcək işlər isə, təbii ki, kənd təsərrüfatında məhsul istehsalının daha da artmasına, nəticə etibarilə, muxtar respublika iqtisadiyyatının inkişafına və əhalinin gəlirlərinin yüksəlməsinə imkanlar yaradacaq.



Kəngərli rayonu da muxtar respublika iqtisadiyyatının inkişafında fəal iştirak edən bölgələrimizdən biridir. Bu, bir tərəfdən dövlət qayğısı ilə bağlıdırsa, digər tərəfdən bölgənin təbii coğrafi şəraiti ilə əlaqədardır. Məhsuldar torpaq sahələri, ilbəil artan meliorasiya və irriqasiya tədbirləri, torpaq mülkiyyətçilərinin kreditlər və texnikalarla təmin olunması torpağa əsas iş yeri kimi baxan rayon sakinlərinin öz iqtisadiyyatlarının, nəticə etibarilə, ölkəmizin iqtisadi qüdrətinin gücləndirilməsinə töhfələrini verməyə ruhlandırır. Növbəti təsərrüfat ilində də Kəngərlinin torpaq mülkiyyətçiləri mövcud imkanlardan və yaradılan şəraitdən səmərəli istifadə etməyə səy göstərirlər. Muxtar respublikanın daha çox aran bölgələrində, həmçinin dağlıq ərazilərin belə ünvanlarında artıq əkinçilik tədbirləri sona çatdırılıb, bəzi əkin sahələrində becərilmə işləri aparılır, bəzi sahələrdən isə məhsul tədarük edilir. Bəllidir ki, əkinçilikdə başlıca vasitələrdən biri təsərrüfat suyu ilə təminatdır. Kəngərlidə su təminatı necə həll edilir? Dünyanı bürüyən su qıtlığının verəcəyi itkiləri minimuma endirmək üçün bölgədə hansı tədbirlər görülür? Bu və digər belə suallara cavab tapmaq üçün Kəngərli Rayon Meliorasiya və Su Təsərrüfatı İdarəsinin rəisi Hafiz Mehdiyevlə həmsöhbət olduq.

Rayonda istifadə edilən su mənbələri haqqında məlumat verən müsahibim bildirdi ki, hazırda bölgədə 4456 hektar sahə əkin altındadır. Bu sahələrin suvarılmasında mütərəqqi üsullardan istifadə olunmasına səy göstərilir. Hafiz Mehdiyevin sözlərinə görə, rayonda müxtəlif su mənbələri mövcuddur. Bunlar içərisində subartezian quyuları xüsusi rol oynayır. Hazırda mövcud olan 67 quyunun 62-dən istifadə edilir. Rayonu həm içməli, həm də təsərrüfat suyu ilə təmin edən subartezianlarda mütəmadi olaraq təmir işləri aparılır. Kəngərlidə 21-dən içməli su, 28-dən həm içməli, həm suvarma, 120-dən isə suvarma suyu kimi istifadə edilən 169 kəhriz də hər iki tələbat üçün mühüm rol oynayır. Onlar içərisində ən bol sulusu Xok kəndindəki Çaykəhrizidir. Bu kəhrizdən də hər iki məqsəd üçün istifadə olunur.

Qeyd edək ki, Çay kəhrizindən Yeni Kərki, Böyükdüz kəndləri, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti və bir hərbi hissə yararlanır. Həmin kəhrizdən Yeni Kərki kəndində 44 evə su çəkilib. Kəngərlidə təsərrüfat suyu üçün istifadə edilən "Xok-1" gölü 700 min kubmetr sututumuna malikdir. Asnı çayından Qarabağlar kəndindəki gölə gələn sudan öz mənbəyini götürən "Xok-1" gölü bu il tam doldurulmayıb. Rayonda 3 milyon kubmetr tutumu olan, ancaq qar və yağış suları hesabına doldurulan "Xok-2" gölü də əkinçiliyin inkişafında mühüm rol oynayır. Bu sırada 500 min kubmetr tutumu olan Çalxanqala gölünü də qeyd etmək yerinə düşər.

Şərur rayonunun Gümüşlü kəndi ərazisində tikilmiş Arpaçay Su Anbarı da Kəngərlidə kənd təsərrüfatının inkişafında mühüm rol oynayır. Belə ki, anbarın sol sahil kanalından öz axarı ilə Qıvraq kəndinin bir hissəsinə, Qabıllı və Şahtaxtı yaşayış məntəqələrinə təsərrüfat suyu nəql olunur. Həmçinin həmin anbardan "Qıvraq-1" Nasos Stansiyasının götürdüyü su "Qıvraq-2" Nasos Stansiyasına vurulur. Bu sudan isə Yurdçu, Qarabağlar və Xok kəndlərində istifadə edilir. Onu da qeyd edək ki, Yurdçuda 175,9 hektar sahədə qapalı suvarma sistemi tətbiq olunub və bu da su itkisinin qarşısının alınmasında böyük əhəmiyyətə malikdir. Yeri gəlmişkən, bu gün bölgədə bu sistemdən istifadəyə geniş yer verilir. Dəqiq desək, 2490,9 hektar sahədə bu sistem tətbiq olunub.

Rayonda nasos stansiyaları da az deyil, onların işlək səviyyədə saxlanılmasına ciddi önəm verilir. Mənbəyini Araz çayından götürən Şahtaxtı və Yeni Böyükdüz, "Azərbaycan" Nasos Stansiyasından qidalanan Əzizbəyov, mənbəyini Uzunoba Su Anbarından alan 4 nömrəli nasos stansiyaları Xokun, Yeni Kərkinin, Çalxanqalanın, Xıncabın, Təzəkəndin, Böyükdüzün müəyyən ərazilərində əkinçiliyi və meyvəçiliyi inkişaf etdirməyə geniş imkanlar yaradıb. Adıçəkilən sonuncu su mənbəyindən Xok və Böyükdüz yaşayış məntəqələrinə öz axını ilə də su nəql olunur.

Hafiz Mehdiyev muxtar respublikamızda içməli və suvarma sularının böhranlı vəziyyətində idarə olunmasının zəruriliyi nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən müvafiq Sərəncamla imzalanmış Tədbirlər Planından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində görülən işlərdən də bəhs etdi. Bildirdi ki, bugünkü durum su təsərrüfatı işçilərindən öz vəzifə borclarına ikiqat məsuliyyət hissi ilə yanaşmağı tələb edir. Ona görə də həyata keçirilən tədbirlərin həcmi genişdir. İlk növbədə, bütün su mənbələrində, hidrotexniki qurğularda cari təmir işləri davam etdirilir. Bu günədək rayon ərazisindəki ara arxlarda, içməli su xətlərində, suvarma və təzyiqli boru xətlərində təmir aparılıb.

Su itkisinə yol verməmək üçün yerlərdə maarifləndirici tədbirlər davam etdirilir, su istehlakçılarına baş verəcək çətinliklərdən az itki ilə qurtarmaq üçün bu qiymətli sərvətdən səmərəli istifadə etməyin vacibliyi vurğulanır. Bu işdə Sudan İstifadə Edənlər Birliyi (SİEB) üzvlərinin üzərinə mühüm vəzifələr düşür. Qeyd edək ki, rayonda 6 belə birlik yaradılıb. Birlik üzvləri ictimai işlərdə fəallıq göstərən insanlardır. Onlar təmsil etdikləri yaşayış məntəqələrində maarifləndirici söhbətlər aparır, su bölgüsünə nəzarət edirlər. Su istehlakçıları da yaxşı dərk edirlər ki, təbiətin növbəti sınağından çıxmaq həm də onların özlərindən asılıdır. Bütün bunlar isə belə deməyə əsas verir ki, torpaq mülkiyyətçilərinin, kənd təsərrüfatı ilə məşğul olan sahibkarların, ailə təsərrüfatlarının əlbir fəaliyyəti hesabına bu təsərrüfat ili də uğurla başa vurulacaq.

**✍ Muxtar MƏMMƏDOV**

*Görkəmli dövlət xadimi Heydər Əliyev deyirdi:* ***"Bədii söz insanların ağlına və ürəyinə daha tez yol tapır, daha dərindən nüfuz edir, onlara son dərəcə böyük təsir göstərir".*** *Məhz buna görə idi ki, Ulu Öndər ədəbiyyata, ədəbiyyat adamlarına qayğını özünün vəzifəsinə çevirmişdi. Ümummilli Liderimizin 100 illik yubiley tədbirləri sırasında bu istiqamətdə görüşlərin, dəyirmi masaların təşkil olunması, Onun unudulmaz xatirəsinin anılması isə şair və yazıçılarımızın, söz adamlarının dahi şəxsiyyətə ehtiramının ifadəsidir. Biz də "Şərq qapısı" olaraq bu məsələni gündəmdə saxlayırıq. Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, şair Asim Yadigarla söhbətimizdə də xalqımızın böyük oğlu ilə bağlı bəzi məqamlara toxunduq.*



*2023-cü il "Heydər Əliyev İli"dir*

# Heydər Əliyev və ədəbiyyatımız

***– Asim müəllim, xalqımız böyük qürur və şərəflə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Çünki bugünkü müstəqil Azərbaycanı məhz dahi şəxsiyyət quraraq bizə təhvil verib. Ümummilli Liderimiz üçün həyatın sıralanmış sahəsi yox idi. Bütün sahələr eyni əhəmiyyət daşıyırdı. Ədəbiyyat, söz sənəti də eləcə...***

– Ömrü boyu Azərbaycan ziyalılarının qayğısını çəkən, ədəbiyyatımıza, mədəniyyətimizə, incəsənətimizə böyük sevgi ilə qayğı göstərən Ümummilli Liderimiz Heydər Əliyev xalqını, Vətənini daha çox sevən, onun hər uğuruna ürəkdən sevinən ən Böyük Azərbaycanlı, Azərbaycanın bütün sahələrdə uğur qazanmasında misilsiz xidmətlər göstərən dahi şəxsiyyət idi.

Sirr deyil ki, ötən əsrin 70-80-ci illəri Azərbaycan ədəbiyyatının və mədəniyyətinin, iqtisadiyyatının, təhsil və səhiyyəsinin, bir sözlə, Azərbaycanın sürətli inkişaf dövrü kimi tarixin yaddaşına həkk olunub. Məhz bu illərdə Azərbaycan xalqının min illərboyu yetirdiyi böyük, tarixi şəxsiyyətlərin bir daha dünya xalqlarına yenidən tanıdıldığı dövrdür.

Ulu Öndər xalqımızı 90-cı illərin xaosundan, böyük bəlalarından qoruya bildi. Azərbaycanı Avropa Şurasına üzv qəbul etdirməklə Azərbaycanı Qərbə və dünyaya bir daha tanıtdı.

Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğunun böyük memarı olan Ümummilli Liderimiz Heydər Əliyev həm də 2001-ci ilin 9-10 noyabr tarixdə Bakıda Dünya Azərbaycanlılarının I Qurultayını keçirməklə taleyin hökmü ilə dünyanın dörd bir tərəfinə səpələnmiş soydaşlarımızı bir bayraq altına yığa bildi.

Ulu Öndər Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşmasına, qeyri-hökumət təşkilatlarının yaradılmasına xüsusi önəm verən dahi, uzaqgörən bir siyasətçi idi. Ötən əsrin 90-cı illərinin dağıdıcı prosesləri yaradıcı təşkilatları da çətin vəziyyətə salmışdı. Belə bir vəziyyətdə yaradıcı təşkilatlar da nə edəcəyini bilmirdi. Həmin dövrdə Ümummilli Lider başqa yaradıcı qeyri-hökumət təşkilatları ilə yanaşı, Azərbaycan Yazıçılar Birliyini də dağılmaq, bağlanmaq təhlükəsindən qorudu, Yazıçılar Birliyinin mətbu orqanlarının – qəzet və jurnalların nəşrinə vəsait ayıraraq onların fəaliyyətinin davam etdirilməsinə köməklik göstərdi.

Prezident mükafatlarının və təqaüdlərinin, müxtəlif dövlət təltiflərinin verilməsi ilə bağlı sərəncamlar imzalanması bir daha onu göstərdi ki, Ulu Öndər yaradıcı insanlara, yaradıcı təşkilatlara qayğını zəruri sayır.

***– Dahi rəhbərin Azərbaycan ədəbiyyatının klassiklərinə, çağdaş ədəbiyyatımızın qüdrətli nümayəndələrinə diqqəti qürurverici idi. Həmçinin milli-mənəvi dəyərlərimizin, dilimizin qorunmasında, inkişafında şair və yazıçılarımızın min illərboyu xalqımız qarşısındakı danılmaz xidmətləri də kənarda qalmırdı.***

– 1974-cü ildə "Müasir Azərbaycan dili" dərsliklərinin müəlliflərinə Azərbaycan Dövlət mükafatının verilməsi təkcə alimlərimizə deyil, həmçinin dilimizə verilən yüksək qiymət idi. Ulu Öndər dilimizi dövlət dili səviyyəsinə qaldırdı. Dövlət dilimiz – ana dilimizin ali kürsülərdən eşidilməsi o dövr üçün ən cəsarətli addım idi ki, bunun da təməlini Ümummilli Liderimiz qoymuşdu.

Süleyman Rəhimov, Rəsul Rza, Mirzə İbrahimov, Süleyman Rüstəm, Qara Qarayev, Niyazi və digər görkəmli ədəbiyyat və sənət adamları "Sosialist Əməyi Qəhrəmanı" kimi yüksək fəxri adlara layiq görüldülər. Ancaq bu fəxri adların alınması da o qədər asan deyildi. Bu işdə də Heydər Əliyev cəsarəti, Heydər Əliyev qətiyyəti öz sözünü demişdi.

1981-ci ildə Ulu Öndər böyük Azərbaycan şairi Nizami Gəncəvinin 840 illik yubileyinin keçirilməsi ilə bağlı qərar verir. Yubileyin Moskvada keçirilməsinə həmin dövrdə Sov.İKP MK-nın II katibi vəzifəsində işləyən M.Suslov etiraz edərək deyir ki, bu tarix yuvarlaq deyil. Onda görkəmli dövlət xadimi Heydər Əliyev qətiyyətlə bildirir ki, Nizami Gəncəvi elə bir şəxsiyyətdir ki, onun yubileyini nəinki on ildə bir dəfə, elə hər il keçirmək lazımdır.

Həqiqətən də, Ümummilli Liderimiz öz istəyinə nail olur. 1981-ci ildə dünyanın 20 ölkəsindən gəlmiş qonaqlarla birlikdə Nizami Gəncəvinin 840 illik yubileyi Bakıda Respublika Sarayında çox böyük təntənə ilə keçirilir. Yubiley tədbiri Moskvada da baş tutur...

Görkəmli dövlət xadiminin qayğısı sayəsində İmadəddin Nəsiminin 600 illik yubileyi də 1973-cü ilin sentyabrında böyük təntənə ilə qeyd edilir. Böyük şairin yubileyinə dünyanın 29 ölkəsindən tanınmış alimlər, şairlər gəlir. 1994-cü ildə müstəqilliyimizin ilk illərində Məhəmməd Füzulinin 500 illik yubileyinin keçirilməsi də Ulu Öndərin ədəbiyyatımıza qayğısının ifadəsi idi.

Ədəbiyyatın gücünə, qüdrətinə inanan Ümummilli Liderimiz Heydər Əliyev bədii əsərlərə yüksək qiymət verərək deyirdi: ***"Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur".***

***– Ulu Öndər həm də ədəbiyyat, söz adamlarının fəaliyyətinə hərtərəfli şərait yaradır, onlara qayğısını əsirgəmirdi...***

– 1977-ci ildə Azərbaycanda "Yazıçı" nəşriyyatının yaradılması Heydər Əliyevin Azərbaycan yazıçılarına ən böyük qayğısı idi. Şüvəlanda yazıçıların yaradıcılıq evi tikildi. Şuşada 80-ci illərin əvvəllərində Molla Pənah Vaqifin əzəmətli məqbərəsi ucaldıldı. Bu, qədim Qarabağımıza Heydər Əliyev möhürü, torpağımıza göz dikənlərə əbədi gözdağı idi. Erməni vandalları tərəfindən dağıdılan həmin məqbərə 2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən yenidən ucaldıldı. Mən də həmin məqbərənin açılışı zamanı Şuşada Vaqif Poeziya Günlərində iştirak və çıxış etmişəm.

Sonralar belə əzəmətli bir məqbərə doğma diyarımızda – Naxçıvanda ucaldıldı. 1996-cı ildə Hüseyn Cavidin məqbərəsinin açılışı zamanı Heydər Əliyev böyük sevinc və qürur hissi ilə demişdir: ***"Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır".***

Xalqımızın böyük oğlunun ölkəmizə rəhbərliyi dövründə şair və yazıçılarımızın yubileyləri ilə bağlı yüzlərlə yığıncaqlar, tədbirlər keçirilib. Ədəbiyyatımızın böyük təbliğatçısı olmaqla yanaşı, dahi rəhbər həm də müasir şair və yazıçılarımızın himayədarı idi. Bəxtiyar Vahabzadə, İsa Hüseynov, Məmməd Araz, Xəlil Rza Ulutürk, Anar kimi yazıçılarımızı O, böyük mərdliklə, cəsarətlə yaşadığı dövrün sərt rejimlərindən qoruyub.

Azərbaycana başçılıq etdiyi illərdə Ulu Öndər tərəfindən klassik şairlərimizin əsərlərinin çapı, təbliği ilə yanaşı, şifahi xalq ədəbiyyatı nümunələrimiz də unudulmadı. Milli varlığımızın tərcümanı – "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin YUNESKO tərəfindən dünya miqyasında keçirilməsi təşəbbüsünü də Azərbaycan Respublikası adından Heydər Əliyev qaldırdı. YUNESKO yubileylə bağlı təklifi qəbul etdi. Yubileylə bağlı hazırlıq işləri görüldü. Dastanla bağlı elmi kitablar yazıldı. Xatırladaq ki, elə 70-ci illərdə Xalq yazıçısı Anarın ssenarisi əsasında çəkilən "Dədə Qorqud" filminin xeyir-duasını da dahi şəxsiyyət Heydər Əliyev vermişdir.

2000-ci il aprel ayının 10-da "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi Bakı şəhərində təntənə ilə qeyd olundu.

Müstəqillik illərində də Ulu Öndərimizin sənət adamlarına qayğısı azalmadı. Müstəqil Azərbaycanımızın ilk "İstiqlal" ordenləri Xalq şairlərimiz Bəxtiyar Vahabzadəyə, Məmməd Araza və Xəlil Rza Ulutürkə verildi. Bununla da Ümummilli Liderimiz Azərbaycanın müstəqilliyə qovuşmasında şairlərimizin, ədəbiyyatımızın rolunu yüksək qiymətləndirdi.

***– Ulu Öndərin müəyyənləşdirdiyi siyasət bu gün də uğurla davam etdirilir...***

– Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ədəbiyyata, sənət adamlarına Ulu Öndərimiz Heydər Əliyevin böyük qayğı missiyasını ləyaqətlə davam etdirir. Bu gün şair və yazıçılarımızın əsərləri ölkə başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli Sərəncamı ilə nəşr olunaraq ölkə kitabxanalarına hədiyyə edilir. Folklorumuzun araşdırılması davamlı xarakter alıb. Ayrı-ayrı bölgələrə aid folklor nümunələri ayrıca nəşr edilir. Şair və yazıçılarımız, digər sənət və mədəniyyət işçiləri yüksək fəxri adlara layiq görülürlər. Onlara Prezidentin fərdi təqaüdləri, fərdi mükafatları, digər dövlət təltifləri verilir. Prezident cənab İlham Əliyevin 2007-ci ildə imzaladığı sərəncamlara əsasən əlavə olaraq hər il 50 nəfər yaşlı, 20 nəfər gənc yazıçıya Prezidentin fərdi mükafatları verilir. Yazıçıların, rəssamların, bəstəkarların iş şəraitləri yaxşılaşdırılır. Onlar üçün yaradıcılıq evləri tikilir. Ədəbiyyat tariximiz, Milli Ensiklopediyamız nəşr edilir, dünya ədəbiyyatının nadir inciləri yenidən çap olunaraq oxucuların ixtiyarına verilir. Biz yaradıcı ziyalılar qurucusu və memarı Ümummilli Liderimiz Heydər Əliyev olan Azərbaycanda, eləcə də onun ayrılmaz parçası doğma Naxçıvanımızda mədəni həyatımızda, ədəbiyyat və incəsənətimizdə, milli-mənəvi dəyərlərimizin üzə çıxarılmasında, qorunmasında gedən müsbət yeniləşmələri, dəyişmələri görür və bu sürətli inkişafı ürəkdən alqışlayırıq...

***"Azərbaycan dünyaya Günəş kimi doğacaq!"*** – deyən Ulu Öndərimizin arzuları bu gün həqiqətə çevrilib. Belə ki, Azərbaycan artıq dünyanın böyük söz və nüfuz sahibi olan ölkələrindən biridir. Elə tanınmış şair-publisist Asim Yadigar da bu məcrada olan söhbətimizi Ulu Öndərə həsr etdiyi "Bir nurlu heykəl yarat" şerinin son bəndi ilə bitirdi:

*Heykəltəraş qardaşım, bir nurlu*
*heykəl yarat,*
*Heydərimin adına yaraşan heykəl olsun.*
*O, heykəltək ucaltdı anam Azərbaycanı,*
*Qoy sənin yaratdığın ondan da*
*gözəl olsun!*

✍ **Aytac CƏFƏRLİ**

## Kitab təqdimatı olub



AMEA Naxçıvan Bölməsində İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin özbək şairi Məhəmməd Salihin cağatay türkcəsindən ana dilimizə tərcümə etdiyi "Şeybaninamə" poemasının təqdimatı keçirilib.

Tədbiri giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb. Akademik əvvəlcə özbək şairi Məhəmməd Salih və onun "Şeybaninamə" məsnəvisi haqqında fikirlərini bölüşüb, Məhəmməd Şeybani xanın tarixdəki yerindən danışıb.

Bölmə sədri belə şəxsiyyətlərə həsr olunmuş əsərlərin tarixi keçmişin öyrənilməsinə təsirindən, eləcə də həmin əsərlərin ana dilimizə tərcüməsinin əhəmiyyətindən söz açıb, professor Əbülfəz Quliyevin tərcüməçilik fəaliyyətindən, bu günədək nəşr olunan əsərlərindən bəhs edib.

İsmayıl Hacıyev yeni nəşri Azərbaycan-özbək ədəbi əlaqələrinin möhkəmləndirilməsinə növbəti töhfə kimi qiymətləndirib.

Bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov tədbirdə "Azərbaycan-özbək ədəbi əlaqələri və AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin tərcüməsində "Şeybaninamə" məsnəvisi" mövzusunda məruzə edib.

Alim Azərbaycan-özbək ədəbi əlaqələrinin tarixi, həmin əlaqələrin sonrakı inkişafı və orta əsr özbək ədəbiyyatının seçilən nümayəndələri haqqında məlumat verib. Məruzəçi problemin ədəbiyyatşünaslıqdakı yerindən bəhs edərək bir sıra tədqiqatçıların mövzu ilə bağlı araşdırmalarını diqqətə çatdırıb.

Ramiz Qasımov professor Əbülfəz Quliyevin tərcüməsində anadilli oxuculara təqdim olunan əsəri əhatəli təhlil edib.

Daha sonra İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Onomastika şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Firudin Rzayev "Şeybaninamə"də tarix: faktlar və toponimlər" adlı məruzə edib.

Əvvəlcə poemada əksini tapan tarixi hadisələri diqqətə çatdıran alim Avropa səyyahlarının XII-XVI əsrlərə aid əsərlərində Azərbaycan dilinin işlədilmə arealı, türk xalqları arasındakı ədəbi-mədəni əlaqələr barədə, "Şeybaninamə"də qeyd olunan adlardan bir çoxunun etimologiyası haqqında müfəssəl məlumat verib. Məruzəçi türk tayfalarının qədim tarixindən, bu bilgilərin daha geniş oxucu kütləsinə çatdırılmasında AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin xidmətlərindən söz açıb.

Sonda çıxış edən AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev əsərlə ilk tanışlığı, onun tərcümə variantları ilə bağlı fikirlərini dinləyicilərlə bölüşüb, təqdimat mərasiminin təşkilinə və fəaliyyətinə göstərilən diqqətə görə tədbir iştirakçılarına təşəkkür edib.

*AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti*

*Naxçıvan Baş Gömrük İdarəsində "Psixotrop maddələr, yeni növ sintetik narkotik vasitələr, hallüsinogenlər və prekursorlar" mövzusunda təlim keçirilib.*

## Təlim keçirilib



Təlimdə Naxçıvan Baş Gömrük İdarəsinin tabeçiliyində olan struktur bölmələrin, o cümlədən "Könüllü gömrükçü" dəstəsinin üzvləri iştirak ediblər.

Naxçıvan Baş Gömrük İdarəsinin rəisi Vüqar Əliyev mövzunun aktuallığına dair fikirlərini bölüşüb və gömrük əməkdaşlarını təlimdə aktiv olmağa dəvət edib.

Sonra Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəis müavini İsmayıl Əfəndiyev "Psixotrop maddələr, yeni növ sintetik narkotik vasitələr, hallüsinogenlər və prekursorlar" mövzusuna dair təqdimatla çıxış edib.

Təlimin sonunda auditoriyanı maraqlandıran suallar ətraflı cavablandırılıb.

*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi*

## Növbəti tibbi aksiya təşkil edilib



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində növbəti humanitar tibbi aksiya Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzi publik hüquqi şəxsin həkim heyəti tərəfindən Ordubad rayonunun ən böyük yaşayış məntəqələrindən olan Dəstə kəndində keçirilib.

Aksiya zamanı 38 qadın müayinə olunub. Ultrasəs müayinəsindən keçirilən zaman problemi olan qadınlar dərindən müayinə üçün Perinatal Mərkəzə dəvət olunublar.

Müayinələr zamanı mərkəzin mütəxəssis ginekoloq həkimləri tərəfindən maarifləndirici söhbətlər aparılıb, ailə planlaşdırılması və qadın sağlamlığı haqqında ətraflı məlumatlar verilib.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti*

# Ermənistanın növbəti ekoterroru yolverilməzdir

*Ermənistan Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd bölgədə və Türkiyə ilə sərhədə çox yaxın ərazidə – Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun yaxınlığında, daha dəqiq desək, Arazdəyən kəndində ABŞ sərmayəsi ilə iri metallurgiya zavodu inşa etməyə hazırlaşır. Vaxtilə Arazdəyən-Culfa-Ordubad-Meğri-Horadiz xətti üzrə Araz çayı boyunca dəmir yolu işlək olub. Ərazidə zavodun tikintisinə 70 milyon dollar Amerika sərmayəsinin qoyuluşu nəzərdə tutulur. Dəhşətli burasıdır ki, bu bölgədə ağır sənaye zavodunun inşası geniş zolaqda ətraf mühitin, ekosistemin pozulmasına, havanın zəhərli tullantılarla çirklənməsinə gətirib çıxaracaq. Zavodun burada tikilməsinin məqsədi isə bölgəyə hakim olan şimal küləyi vasitəsilə zəhərli tüstünü Sədərəyə sovurmaqdır.*



Beynəlxalq hüquqa görə, hər bir ölkə öz ərazisində təsərrüfat fəaliyyəti ilə məşğul ola bilər. Lakin həmin fəaliyyət digər ölkənin ərazisinə təsir edirsə, bu mütləq razılaşma yolu ilə beynəlxalq hüquq və beynəlxalq ekoloji hüquq normalarına uyğun həyata keçirilməlidir. Ermənistanın tarixi Azərbaycan torpağı Arazdəyəndə Araz çayı üzərində xarici sərmayədarlarla birgə tikdiyi metallurgiya zavodu haqlı olaraq ölkəmizdə ciddi narahatlıq və etiraz doğurur.

Bu zavodun tikintisi barədə, hətta Ermənistanın iqtisadiyyat naziri Vahan Kerobyan da öz sosial şəbəkə hesabında paylaşım edib. O bildirib ki, hazırda 70 milyon ABŞ dolları sərmayə ilə böyük erməni-Amerika metallurgiya zavodu tikilir. İstehsal hündürlüyü 30 metr, sahəsi 16 500 kvadratmetr olan binadır və burada ildə 180 min ton məhsul istehsal olunacaq. Artıq 200 nəfər işləyir, işə salındıqdan sonra isə 1000 nəfər işləyəcək.

Sədərək rayonunun yaxınlığında inşa edilən bu zavod yerli sakinləri xüsusilə narahat edir. Kənd sakini ***Vahid Seyidov*** deyir ki, mənfur qonşularımız hələ ötən əsrin ortalarında da burada belə bir zavod tikmək istəmişdilər: “Lakin kənd camaatının gəlişindən sonra o zaman zavodun tikintisinə icazə verilməmişdi. İndi yenidən zavod inşa etmək istəyirlər. Metallurgiya zavodunun inşası bizim üçün böyük təhlükədir. Çünki zavodun tüstüsü birbaşa Sədərək rayonuna sovrulacaq ki, bu da müəyyən xəstəliklərin çoxalmasına, hətta yeni xəstəliklərin yaranmasına da səbəb olacaq. Bunun qarşısı dərhal alınmalı və tikinti dayandırılmalıdır. Əvvəllər olduğu kimi, biz – Sədərək sakinləri yenə etirazımızı bildirəcəyik”.

Bu zavodun məqsədli şəkildə ölkəmizlə sərhəddə, Arazın Azərbaycana töküləndə girəcəyində tikilməsi isə ekoterrordur. Metalların zəhərli tullantıları həm Araz çayına, həm də “Şir arxı”na axıdılmaqla burada olan yüzlərlə köçəri quşun və balığın məhvi deməkdir. Araz çayının Ermənistan tərəfindən çirkləndirilməsi bu gün də davam edir. Bu isə Arazçayı ərazilərdə fauna və floranın məhvinə səbəb olur. Deməli olar ki, artıq bir çox bitki və heyvanların təbiətdən yox olması təhlükəsi yaranıb. Son zamanlar aparılan müşahidələr zamanı müəyyən edilib ki, çayın suyu qatılaşıb, rəngi dəyişilib. Bütün bunlara baxmayaraq, Ermənistan təbiət əleyhinə yönələn əməllərini hələ də davam etdirir.

Sədərək rayon sakini ***Emin Hüseynzadə*** deyir ki, metal zavodları olan yerlərdə onkoloji xəstəliklərin də artması hər kəsə bəllidir: “Ermənistanın bu zavodu Azərbaycanla sərhəddə tikməsi isə öncədən düşünülmüş bir haldır. Sərhəddə bu tipli zavodun inşasının qarşısı alınmalıdır, əks halda böyük fəlakətlər ola bilər. Zəhərli tüstü insanlarda bir çox xəstəliklər yaradacaq”.

Zavodun fəaliyyətə başlamasından sonra onun yaratdığı təhlükə təkcə Araz çayının çirkləndirilməsi ilə yekunlaşmır. İstehsal zamanı müəssisənin atmosferə atacağı qaz və metal tozlar külək vasitəsilə ətrafa yayılacaq. Bu isə sərhəddə yerləşən yaşayış məntəqələrimiz, eyni zamanda muxtar respublikamız üçün təhlükəlidir.

Qeyd edək ki, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Ermənistanın Azərbaycanın ekoloji mühitinə ciddi mənfi təsir göstərən qanunsuz fəaliyyəti ilə bağlı bəyanat da yayıb. Bəyanatda qeyd olunur ki, belə bir zavodun tikilməsi Ermənistanın “Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Konvensiyasının (Espo Konvensiyası) müddəalarını kobud surətdə pozması deməkdir. Belə ki, Espo Konvensiyasının müddəalarına görə, Konvensiya tərəfi öz ərazisində planlaşdırdığı iri təsərrüfat fəaliyyətinin digər ölkələrin ərazisinə mənfi ekoloji təsiri olduğu halda, bu fəaliyyəti həmin ölkənin müvafiq qurumları ilə razılaşdırılmalı, ətraf mühitə təsirin qiymətləndirilməsi ilə bağlı sənəd hazırlanmalıdır. Ermənistan Espo Konvensiyasının üzvü olaraq sözügedən fəaliyyətə başlamazdan öncə Azərbaycanın və təsirə məruz qalan ərazilərdə ictimaiyyətin transsərhəd ətraf mühitə təsirin qiymətləndirilməsi prosedurunda iştirakını təmin etməli idi. Bəyanatda deyilir: “Bildiririk ki, Ermənistan tərəfindən beynəlxalq hüquq, o cümlədən ekoloji hüquq normalarına riayət edilməməsi ilk hal deyil. Bir müddət əvvəl Metsamor Atom Elektrik Stansiyasının ərazisində yeni nüvə reaktorunun tikintisi planları ilə əlaqədar Azərbaycan Espo Konvensiyası çərçivəsində Ermənistana qarşı iddia irəli sürmüş və Ermənistanın Konvensiyanın müddəalarına əməl etmədiyi barədə qərar çıxarılmışdır.

Hamıya məlumdur ki, Ermənistanın dağ-mədən sənayesi Azərbaycanın ekoloji mühitinə ciddi mənfi təsir göstərir. Ermənistanın iri mədən müəssisələri – Qacaran mis-molibden zavodu və Qafan filiz emalı kombinatının yüksək kimyəvi tərkibli istehsalat suları uzun müddətdir ki, transsərhəd Oxçuçayı intensiv şəkildə çirkləndirir. Bu faktlar göstərir ki, Ermənistanın bu cür qanunsuz fəaliyyətləri təkcə Azərbaycanın deyil, ümumi regionun ekoloji mühiti üçün təhlükə mənbəyinə çevrilib. Ermənistanın regionun ekoloji təhlükəsizliyinə zərbə vuran, beynəlxalq hüquq normalarına zidd olan əməllərini qətiyyətlə pisləyir, beynəlxalq ictimaiyyəti bu məsələyə xüsusi diqqət göstərməyə çağırırıq”.

Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatları (QHT) da Ermənistanın Arazdəyəndə yeni ekoloji fəlakətə səbəb olacaq layihəsi əleyhinə bəyanat yayıblar. Bəyanatda vurğulanır ki, bu metallurgiya zavodunun zəhərli kimyəvi tullantıları bölgədəki ekosistemə böyük zərbə vura bilər. Onun tullantılarının Araz çayına axıdılması riski həm çaydakı canlı aləm, həm də Arazın suyundan suvarma üçün istifadə edilən geniş təsərrüfatlar üçün həyəcan siqnalıdır. Ermənistanın dağ-mədən sənayesində heç bir beynəlxalq standartlara əməl edilməməsi həm Azərbaycan, həm də, ümumilikdə, bölgə üçün ciddi ekoloji təhdid yaradır.

Azərbaycan tərəfi ilə razılaşdırmadan sərhəddə belə bir müəssisənin tikintisi “Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” 1991-ci il Espo Konvensiyanın kobud şəkildə pozulmasıdır. Azərbaycan və Ermənistan həmin Konvensiyanın tərəfləridir və Espo Konvensiyasından irəli gələrək bu zavodun ətraf mühitə təsirinin qiymətləndirilməsi işi aparılmalı, tikinti ilə əlaqədar qiymətləndirmə sənədinə qonşu dövlət olan Azərbaycanın müvafiq qurumları baxmalı, eyni zamanda bölgəyə yaxın yaşayan azərbaycanlıların rəyi nəzərə alınmalıdır. Ermənistanın bu tələblərə riayət etməməsi bir daha onu göstərir ki, bu “zavallı” dövlət regionda destruktiv siyasət aparır, tərəf olduğu beynəlxalq sənədlərin müddəalarını, beynəlxalq öhdəliklərini kobud şəkildə pozur.

Bəyanatda deyilir: “Ermənistan tərəfindən Azərbaycana qarşı ekoloji terror və ekosid siyasətinin aparılması yenilik deyil. “Metsamor”un uzun illər regionun ətraf mühitinə təhdid kimi qalması, işğal dövründə Qarabağda törədilmiş genişmiqyaslı ekoloji faciələr, yüksək kimyəvi tərkibli istehsalat sularının təmizlənmədən Oxçuçaya axıdılması buna əyani misaldır. Ermənistan Oxçuçayı kəskin şəkildə çirkləndirib. Bu isə çayın Azərbaycan ərazisi boyu keçdiyi hissənin ekoloji sistemini bərpa olunmaz deqradasiyaya məruz qoyub. Alman şirkəti “Cronimet” bu ekoloji cinayətdə Ermənistanla birgə iştirak edib. Təəssüflər olsun ki, bu günə qədər də Almaniya hökuməti bu istiqamətdə heç bir praktiki addım atmayıb. Törətdiyi ekoloji cinayətlərlə Ermənistan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin, xüsusilə də hər kəsin sağlamlığının təmin edilməsinə dair 3-cü, təmiz su və sanitariya ilə bağlı 6-cı, iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizəyə dair 13-cü, torpaq ekosisteminin mühafizəsi üzrə 15-ci məqsədlərinin tamamilə əleyhinə gedir”.

Qeyri-hökumət təşkilatlarının Amerika Birləşmiş Ştatları (ABŞ) hökumətinə, Azərbaycandakı və Ermənistandakı ABŞ səfirliklərinə, müvafiq beynəlxalq təşkilatlara müraciətlə hazırlanan bəyanatında vurğulanır ki, 2022-ci ildə BMT təmiz, sağlam və davamlı ətraf mühiti insan hüququ kimi tanımışdır. Ermənistan ekologiyaya ciddi ziyan vurmaqla Azərbaycan, o cümlədən region əhalisinin insan hüquqlarını kobud şəkildə pozur. Bundan başqa, müxtəlif beynəlxalq sənədlər, o cümlədən biznes və insan hüquqları üzrə rəhbər prinsiplərə görə iqtisadi fəaliyyət insan hüquqlarına ziyan vurulmadan həyata keçirilməlidir. Bu halda da Ermənistan məsuliyyətsiz davranır, təmiz, sağlam və davamlı ətraf mühit hüququna məhəl qoymur və sırf özünün iqtisadi maraqlarını önə çəkir.

Bəyanatda deyilir: “Azərbaycanda fəaliyyət göstərən ekoloji yönümlü qeyri-hökumət təşkilatları olaraq biz, başda BMT-nin Ətraf Mühit Proqramı, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin ətraf mühit üzrə xüsusi məruzəçisi, BMT-nin zərərli maddələr və insan hüquqları üzrə xüsusi məruzəçisi olmaqla onları bu fakta reaksiya verməyə və Ermənistanın növbəti ekoloji terroruna son qoymağa çağırırıq”.

**✍ Ceyhun MƏMMƏDOV**

# Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin innovativ dərnəyi



Yeniyetmə və gənclərə qayğı göstərərək onların cəmiyyətə düzgün inteqrasiyasına kömək etmək bütün təhsil müəssisələri ilə yanaşı, məktəbdənkənar tərbiyə ocaqlarının da üzərinə mühüm vəzifələr qoyur. ***“Uşaqlar bizim gələcəyimizdir”***, – deyən Ümummilli Liderimiz Heydər Əliyev vurğulayırdı ki, gələcəyimiz olan uşaqlar hərtərəfli böyüməli, yaxşı təhsil almalıdır. Ulu Öndərin bu istiqamətdə müəyyənləşdirdiyi siyasəti dövrün tələbləri baxımından yerinə yetirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev uşaqların sağlamlığına, təhsilinə, onların layiqli vətəndaş kimi böyüməsinə və inkişafına yönəlmiş islahatlar həyata keçirir. Bunu muxtar diyarımızın timsalında da aydın görmək olar. Paytaxt şəhərimiz Naxçıvanda fəaliyyət göstərən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində bunun bir daha şahidi olduq. Mərkəzin İnnovasiyalar və uşaqların inkişafı şöbəsinin müdiri, eyni zamanda STEAM dərnəyinin rəhbəri ***Türkan Kərimova*** mərkəz barədə məlumat verərək bildirdi ki, 2009-cu il mart ayının 19-dan etibarən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi kimi fəaliyyətimizi davam etdiririk. Həmin vaxtdan mərkəzin binası əsaslı təmir olunaraq məktəblilərin və müəllimlərin istifadəsinə verilmişdir. Mərkəzdə yeniyetmə və gənclərin müxtəlif bacarıqlara yiyələnərək istedadlarını təkmilləşdirmək üçün yeni innovativ dərnəklər açılıb. Hazırda mərkəzdə 41 adda 5 şöbə fəaliyyət göstərir. Onlardan biri də İnnovasiyalar və uşaqların inkişafı şöbəsidir. Şöbədə 9 adda dərnək yaradılıb. Türkan xanımın sözlərinə görə, onlardan biri də STEAM dərnəyidir. Bu dərnəyin həftədə 4 məşğələsi olur. Proqrama əsasən dərslər 6-cı sinifdən yuxarı olan məktəblilər üçün nəzərdə tutulmuş dərs vəsaitləri ilə keçilir. Bu da uşaqların həm nəzəri, həm də praktiki cəhətdən yetişməsinə imkan yaradır. Dərnək üzvlərindən ***Kamal Qafarov*** STEAM Azərbaycan Festivalında Leqo Sumo kateqoriyası üzrə 2-ci yerin qalibi olub. Eyni zamanda mərkəzdə təşkil edilən bir sıra yarışlarda da uğur qazanıbdır. Bu da ondan irəli gəlir ki, burada yüksək peşəkarlıqla çalışan müəllim heyətimiz müxtəlif layihələr təşkil edərək uşaqlarımızı hazırlaşdırır. Belə bacarıqlara yiyələnən uşaqların gələcəkdə uğur qazanması şəksizdir.



Söhbətimizə uşaqlar arasında öz istedadı ilə seçilən ***Zamin Niftəliyev***lə davam etdik. Zamin artıq bir neçə müddətdir ki, yaradıcılıq mərkəzində innovativ dərnək iştirakçılarındandır. O deyir ki, bu dərnək ona bir çox şey qazandırıb. Burada digər yoldaşları ilə birgə yeni dərslər öyrənməyi çox sevir. Keçdiyi dərslər o qədər maraqlı olur ki, vaxtın bitməsini hiss etmirlər. Burada öyrəndiyi vərdişlər dərslərinə müsbət təsir göstərir. Hər gün gəlmək istədiyi bu dərnək onu həm öyrədir, həm əyləndirir. Zamin Naxçıvanda STEAM təhsili üzrə keçirilən yarışlarda bir sıra nailiyyətlər əldə etdiyini diqqətə çatdırdı.

Uşaq və müəllimlərlə yanaşı, valideynlərdən də birinin mərkəzlə bağlı fikirlərini öyrəndik. Zaminin anası ***Lamiyə xanım*** deyir ki, övladının mərkəzdə müxtəlif bacarıqlara yiyələnməsi onun təhsilinə də müsbət təsir göstərir. Məktəb müəllimləri də dərslərində fəallıq göstərdiyini deyirlər. Bu da valideyn kimi onu çox sevindirir.

*Biz də burada yaxından şahid olduq ki, mərkəzdə fəaliyyət göstərən dərnəklər uşaqlarımızın milli-mənəvi ruhda böyüməsinə, intellekt səviyyələrinin yüksəldilməsinə yaxından köməklik göstərir, onların bacarıqlarını təkmilləşdirir, asudə vaxtlarının səmərəli təşkilinə şərait yaradır.*

**✍ Bülbül QULİYEVA**

### *İtmişdir*

Şərur rayon Ərəbyengicə kənd sakini Babayev Cəmaləddin Hüseyn oğlunun adına olan JN-170 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Yengicə kənd sakini Rəhimov Yusif Mahmud oğlunun adına olan JN-152$^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Məmmədov Hüseyn Bayramqulu oğlunun adına olan JN-267$^{A}$ inventar nömrəli, 10209018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 377